# “Bakı”nı yaradan memar



*Daha o ünvanda mənə çox doğma olan "Bakı" qəzeti yerləşmir.*

*Əslində daha heç bizim sevdiyimiz həmin "Bakı" qəzeti də yoxdur.*

*O adda qəzet yaşasa da, hətta köhnə vaxtların sədaqətli əməkdaşlarından o redaksiyada işləyənlər qalsa da, bu, sönmüş ocağın son işartılarını xatırladır.*

*2005-də, 2006-da, 2007-də hər il boyunca qəzetin 8-9 sayı işıq üzü görübsə, başqa nə deyim?*

Amma könül istər ki, böyük ənənələri olan "Bakı" axşam qəzeti yalnız xoş xatirə və tarix olaraq qalmasın, əksinə, qayıtsın!

Yenidən təzə bir nəfəslə fəaliyyətə başlasın, şərəfli dünənindən kök alaraq yeni əsrin təzə tələblərinə uyğun ikinci ömrünü yaşasın, əvvəlkindən də bəyənimli bir tərzdə hər axşam oxucularıyla görüşə gəlsin.

Axı vaxt vardı ki, "Bakı" Azərbaycanın ən sevimli qəzetiydi (ən sevimli qəzetlərindən biri yox, məhz ən sevimli qəzeti!).

Vaxt vardı ki, "Bakı"dan ötrü qəzet köşklərində uzun növbələr yaranardı.

Dövr vardı ki, cavan jurnalistlərçün bu qəzetdə işləmək ən böyük arzuydu.

Elə o illərdə Azərbaycanda tirajı "Bakı"dan da çox olan qəzetlər çıxırdı.

Başqa redaksiyalarda da istedadlı jurnalistlər, bacarıqlı qəzetçilər çalışırdı.

Amma "Bakı"nın yeri başqaydı, "Bakı"nın sanbalı özgə idi.

"Bakı"nı "Bakı" edən güclü bir şəxsiyyət idi.

"Bakı"nın təkrarsız və cazibədar mühitini yaradan o şəxsiyyət bir mahir dirijora bənzəyirdi ki, bu qəzeti bir orkestr kimi məharətlə idarə edirdi.

Bu orkestrdə xaric səslənmələr yox idi. Çünki bu orkestrdə hər kəsin işığını göstərmək, qabiliyyəti biçimində özünü təsdiq və ifadə etmək imkanı vardı.

"Bakı"nın hər işçinin qayğısını çəkən, lazım gələndə bir dağ kimi onlara arxa olan rəhbəri vardı.

"Bakı"nın gənc əməkdaşlarını hərdən yanılmaq, səhv etmək şansından da məhrum etməyən, bağışlamağı, daha dürüst yola yönəltməyi bacaran müdrik və adil ağsaqqalı vardı.

Həmin dövrdə isə belə bir qəzet ab-havası nadirdən-nadir idi.

O şəxsiyyət, o redaktor, o rəhbər, o ağsaqqal - unudulmaz Nəsir müəllim idi.

Azərbaycan mətbuat tarixinin parlaq simalarından olan Nəsir İmanquliyev.

* * *

Tarixdə qalmaq haqqı qazanan mətbuat zirvələrimizin - məşhur qəzet və jurnalların hər birini yüksəldən, təkrarsız edən, zamanın hadisəsinə çevirən ilk növbədə üstün redaktorlar olub.

"Əkinçi"ni Həsən bəy Zərdabinin, "Molla Nəsrəddin"i Mirzə Cəlillə Ömər Faiqin, "Füyuzat"ı Əli bəy Hüseynzadənin, "Kaspi"ni Əlimərdan bəy Topçubaşovun, XX yüzilin əvvəlinin azərbaycanca və rusca "Azərbaycan" qəzetlərini Üzeyir və Ceyhun Hacıbəylilərin, XX əsrin sonunun "Azərbaycan" qəzetini Sabir Rüstəmxanlının, "Qobustan"ı Anarın, "Varlıq"ı Cavad Heyətin… qeyrətləri ağırçəkili edib.

Nəsir İmanquliyevə mətbuat tariximizdə "Bakı" axşam qəzetini yaratmaq, o qəzeti, sovet dönəminin bütün məhdudiyyətlərinə baxmayaraq, vaxtına görə yetərincə demokratik, mühafizəkarlıqdan uzaq edə bilmək, həmin qəzetin qoynunda dəyərli bir jurnalist nəsli yetişdirmək qismət oldu.

Və tale elə tələbəlik çağlarımın başlanğıcından məni bu qayğıkeş, yüksək təşkilatçılıq və idarəedicilik qabiliyyəti olan nurlu ziyalı, həm insan, həm yaradıcı kimi çox qiymətli Müəllimlə rastlaşdırdı.

* * *

…İlk yazım qəzetdə hələ 5-ci sinifdə oxuyarkən çap edilmişdi.

Kürdəmir rayonunda çıxan "İrəli" qəzetində 1966-cı ilin oktyabrında işıq üzü görən birinci məqaləmin sevinci məni mətbuata, yazı-pozuya bir könüldən min könülə bağlamışdı və ardıcıl dərc edildiyim rayon qəzetinin bir neçə il sonra ştatdankənar müxbiri olmuşdum.

1971-ci ilin avqustunda Bakı Dövlət Universitetinin o dövrdə düşülməsi ən çətin olan şərqşünaslıq fakültəsinə uğurlu imtahan verərək qəbul edildikdən sonra rayona qayıtmışdım və məni sonsuz qürur, şadlıq içində təbrik eləyənlərdən biri də yerli qəzetin redaktoru, qocaman jurnalist Abdulbağı Bağıyev idi.

Abdulbağı müəllim mənə: "Yaxşı ixtisas seçmisən, amma qəzetçilikdən də aralanma. Artıq qələmin də püxtələşib, rəva deyil ki, davam etdirməyəsən", - dedi.

Və mənə bir məktub verdi: "Gedərsən "Bakı" qəzetinə, Nəsir İmanquliyevin yanına. Redaksiya elə sənin fakültənin yerləşdiyi Kommunist küçəsiylə Çkalov (indiki İstiqlaliyyət və Niyazi - R.H.) küçəsinin kəsişdiyi yerdədir. Bu məktubu çatdırarsan Nəsir müəllimə. Biz onunla qədim dostuq. Nə şərait lazımsa, səninçün yaradacaq".

Elə ilk dərs həftəsinin sonunda gəldim "Bakı" qəzetinə və aldığım təlimata uyğun olaraq katibəyə "Məni Kürdəmirdən Abdulbağı Bağıyev göndərib" söylədim.

Katibənin redaktorun otağına girməyilə çıxmağı bir oldu, məni içəri dəvət etdi.

Nəsir müəllimlə ilk dəfə onda görüşdüm və haradan biləydim ki, bu görüş həyatımda qalacaq neçə-neçə böyük azərbaycanlıyla, mənimçün həyat məktəbinə çevriləcək neçə-neçə qüdrətli zəka sahibiylə unudulmaz görüşlərimin, ömrümdə başlanacaq yeni mərhələnin müqəddiməsidir.

Nəsir müəllim təqdim etdiyim məktubu oxuyandan sonra dalğınlaşan kimi oldu, sanki hansısa munis xatirələr onu alıb ötən illərə apardı. Abdulbağı müəllimi xəbər aldı, birgə oxuduqları, işlədikləri illəri yada saldı.

"Get şəhər xəbərləri şöbəsinə. Bu dəqiqə zəng vurub tapşıracağam. Oradan başla, sonrasına baxarıq. Şəhəri, idarələri, adamları tanımağın üçün xəbərdən başlamağın məsləhətdir. Amma elə et ki, qəzetlə əməkdaşlıq dərslərinə mane olmasın".

* * *

Belə bir həqiqət var ki, düzgün qoyulmuş bir sualın saysız-hesabsız səhv, amma bircə doğru cavabı var.

Sonralar illər boyu müşahidə elədikcə buna şahid oldum ki, Nəsir müəllimin redaktor, idarə rəhbəri kimi ən seçkin keyfiyyətlərindən biri (və bəlkə də ən mühümü) məhz onun sualı düzgün qoymaq, vəzifəni dəqiq müəyyənləşdirmək səriştəsidir.

Elə mənimçün də başlanğıc fəaliyyət cizgisini dürüst müəyyənləşdirmişdi.

Yazmalı olduğum ilk qısa xəbərləri toplamaq üçün üz tutduğum bolluca fərqli ünvanların sayəsində nabələd olduğum şəhəri 2-3 aydan sonra əməlli-başlı tanıdım, hansı müəssisənin hansı küçədə, hansı zavodun hansı səmtdə yerləşdiyini öyrəndim, trolleybusların, tramvayların, avtobusların marşrutlarını əzbərlədim.

Qəzet xəbərçiliyi konkretliyi, yığcamlığı sevir və bu ilk ayların təcrübəsi mənə fikri bacardıqca lakonik ifadə etmək vərdişlərini də aşıladı.

Görünür, Nəsir müəllim məsul katibliyə və mühasibata da ayrıca göstəriş veribmiş - elə tələbə təqaüdümə bərabər qonorar da alırdım.

* * *

1970-ci illərdə Bakıda az qala hər küçədə bir kitab dükanı vardısa da, bu mağazalarda farsca, ərəbcə, türkcə kitablar tapmaq çətin idi.

Həmin dövrdə Sahil bağında, indiki Muzey Mərkəzinin, o vaxtkı Lenin muzeyinin tuşunda hər bazar günü kitab alverçiləri yığışardılar. Ora, bir növ, "Kitab kubinkası" idi. Orada nadir köhnə kitabları, xarici nəşrləri, hətta Şərq dillərində əlyazmaları əldə etmək mümkün idi.

Hərdən milis bu kitabçıları pərən-pərən salsa da, öhdələrindən gələ bilmirdi, ya da görünür nə şəkildəsə dil tapırdılar və az sonra yenə əntiq kitab dolu çantalarıyla orada sıralanırdılar.

Mən də ayda iki dəfə - bir tələbə təqaüdü, bir də "Bakı" qəzetindən qələmhaqqı aldığım həftənin bazar günlərində özümü bulvardakı o kitab bazarına verərdim. Hər dəfə də, təbii ki, rəsmi dükanlardakından bir neçə dəfə bahasına bir-iki kitab tapıb alardım.

Növbəti bazar günlərindən birində orada az qala təqaüdümün yarısına bərabər olan 2 qırmızı onluğa Ömər Xəyyam rübailərinin 1926-cı ildə İstanbulda Hüseyn Daneş tərəfindən geniş müqəddiməylə nəşr edilmiş tərcüməsini aldım. Bu nəşrin mənim kimi farscanı yeni öyrənən üçün əsas əhəmiyyəti onda idi ki, rübailərin orijinallarından sonra türkcəyə sətri tərcümə və şərhləri gəlirdi. Kitab həm də çox nəfis idi, xeyli miniatürlərlə bəzənmişdi.

Elə dənizkənarı bağda kitabı acgözlüklə vərəqləyə-vərəqləyə gedirdim ki, kimsə qolumdan yapışdı.

Başımı qaldırdım. Nəsir müəllim idi.

Gülümsündü: "Deyəsən əlinə düşən pulu kitaba verirsən. Nədir o elə?", - deyib kitabı aldı, vərəqləməyə başladı.

"Hə, bu, qiymətli kitabdı. Məmmədağa Sultanovda bunun naqis nüsxəsini görmüşdüm".

Məndə xoş təəccüb oyadan bu oldu ki, Nəsir müəllim açdığı səhifədəki rübailərdən birinin farscasını və osmanlıcaya tərcüməsini oxuyaraq ləzzətlə: "Gör nə dərin yazıb e…", - dedi.

Sən demə, əski əlifbanı da yaxşı bilirmiş, farscanı da.

Qayıtdı ki, kitab-dəftərə xərcin, görürəm, çox çıxır, bir daimi rubrika fikirləş ki, sənin olsun, xəbərlərdən əlavə ayda 4-5 dəfə onu da yaz. Həm qonorarın bir az artsın, həm də gəlirin sabit olsun.

Təzə rubrika fikirləşib tapmağımı gözləmədən bir neçə gün sonra redaktorun tapşırığı ilə mənə indi Bakını bəzəyən, o vaxtlarsa hələ yalnız kağız üzərində olan gələcək tikililərlə bağlı "Bu gün layihədir, sabah…" adlı guşəni qəzetdə daimi aparmaq həvalə edildi.

Hansı layihə institutuna getməyi, nədən yazmağı mənə adətən şəhər xəbərləri şöbəsindən Çingiz Hacıyev deyirdi, amma bir gün sifarişi Nəsir müəllim özü verdi: "Qalx Dağüstü park tərəfə, get radio üzrə sədr müavininin yanına. Onlara təzə bina tikilir. Həm bu barədə yaz, həm də xahiş eləmişəm səninlə əməkdaşlıq eləsinlər.

Diksiyan pis deyil, səsin radioya yaxşı düşər, başlarsan orada da verilişlər hazırlamağa".

Nəsir müəllimin xeyirxah yönəltməsiylə başlanan o yol indiyədək davam edir və rəhmətlik Nəsir müəllim radioda hər bazar günü 1975-ci ildən başlayaraq hazırladığım "Axşam görüşləri" verilişini ömrünün axır illərinədək həvəslə dinləyərdi.

Hər görüşəndə də hansısa verilişlə bağlı təəssüratını bölüşəndən, məni təbrik edəndən, razılığını bildirəndən sonra zarafat edərdi ki, o verilişə görə mənə də sağ ol düşür ha!

Əlbəttə ki düşür, əziz Nəsir müəllim!

Həm sağ ol düşürdü, həm rəhmət düşür, həm də daimi minnətdarlıq.

30 ildən artıqdır ki, mən Azərbaycan efiri ilə bağlıyam. O efirlə bağlılığım nəticəsində millətimizin ən dahi insanlarıyla ünsiyyətlərim yarandı, üzümə qapılar açıldı, dünyagörüşüm genişləndi, daxilən zənginləşdim, heç nəylə əvəz edilə bilməyəcək mənəvi sərvətlər qazandım, neçə kitabımın təməli qoyuldu.

Bu yola ilkin çıraq tutan isə siz oldunuz, Nəsir müəllim!

* * *

…Amma hər halda təzə rubrikanı da düşünüb tapdım və getdim Nəsir müəllimin yanına.

Nəsir müəllimin memarı, təməlçisi olduğu "Bakı"nın ilk özəlliyi ondan ibarət idi ki, bu nəşr Azərbaycandakı yeganə axşam qəzeti idi. Bütün başqa qəzetlər səhər kiosklarda olmaqdan ötrü gecədən çapa verilirdi, "Bakı" isə çapa günorta saat 13-də imzalanır və köşklərə axşam saat 5-də, 6-da çıxırdı. Elə həmin səbəbdən də məzmunundakı sərbəstlik, rəngarənglikdən əlavə, bu qəzetin operativlik baxımından da bütün başqa qəzetləri üstələmək imkanı vardı.

Bütün başqa qəzetlərdə gedən ən son xəbərlər 2-3 gün əvvələ aid olurdu, lap ən yaxşı halda 1 gün öncəyə. "Bakı"nınsa günorta çapa imzalanmasına görə nəzəri cəhətdən elə çıxdığı gün baş verən hadisədən yazmaq imkanı vardı. Mənim təklif etdiyim rubrika elə belə də adlanırdı: "Bu gün".

"Düşünürəm ki, bu rubrika altında hər gün bir neçə təzə xəbər verə bilərik. 1-2 gün əvvəldən müxtəlif idarə və müəssisələrlə, mədəniyyət ocaqlarıyla, institutlarla əlaqə saxlayacağam, yaxın günlərdə onlarda hansı yeniliyin gözlənildiyini soruşacağam. Xəbərləri irəlicədən yazıb hazırlayacaq, mətbəədə yığdıracağam. Qəzet çapa gedən gün saat 11-12 radələrində bir dəyişiklik olub-olmaması barədə dəqiqləşdirmə aparacağam və nəticədə heç bir qəzetin etmədiyini edəcəyik, hadisələr barədə elə qəttəzə xəbəri həmin gün verəcəyik. Məsələn, saat 15-də, 16-da başlayıb təxminən axşam saat 5-də, 6-da - qəzet satışa çıxan məqamlarda tamamlanan tədbirlər barədə təfərrüatları oxucuya çatdıracağıq".

Bu təşəbbüsün risk tərəfi olsa da, yeniliyi həssaslıqla qiymətləndirməyi və müdafiə etməyi bacaran Nəsir müəllim tərəddüd etmədən dərhal razılıq verdi: "Əliyyül əla!" Elə günü sabahdan başlayaq. Sən də yaz, başqaları da yazsın. Belə isti xəbərlər nə qədər çox olsa, o qədər yaxşıdır. Amma "Bu gün"lə yanaşı qoy bir "Dünən" də olsun. Nəyi "Bu gün"ə çatdırmasanız, "Dünən"də verin. Onsuz da bunun özü də başqa qəzetlərlə müqayisədə tam təzə xəbərlər olacaq".

İndi kompüterlərin, mobil rabitənin, yeni çap texnologiyalarının həyatımızı büsbütün dəyişdiyi çağlarda belə çaparaq xəbər təqdimləri adi görünür. Amma 1970-80-ci illərdə, mətnlərin metal formalarla hərf-hərf, söz-söz yığıldığı, hər qəzet sətrinin qat-qat nəzarət süzgəcindən və nəhayətdə "qlavlit"dən - senzuradan keçəndən sonra çap edilməsi ucbatından xəbərçilikdə 2-3 günlük ləngimələr təbii və çox normal idi. "Bakı" qəzetinin birdən-birə gün içində baş verən hadisələrdən həmin gün söz açması təxminən möcüzə təsiri bağışlayırdı.

Əlbəttə, bu effektli qəzetçilik gedişinin təhlükəsi də olmamış deyildi, xətaya uğramaq imkanı həmişə vardı. Biz ən geci saat 12-də dəqiqləşdirmə aparırdıq. Amma bəhs etdiyimiz xəbərlər daha sonrakı saatlara da aid olurdu.

Bir də görürdün ki, tutalım, haqqında yazdığım və bu gün saat 16-da keçirilmiş konfransda göstərdiyim alimlərdən biri çıxış etməyib. Ürək-göbəyimi yeyirdim ki, səs-küyü çıxacaq, cəzalanacağam. Amma Nəsir müəllim yaxşı işi layiqincə qiymətləndirməyə qadir olduğu kimi, nöqsanı da bağışlamağı, gərək olanda əməkdaşını köksünü irəli verərək müdafiə etməyi də bacarırdı…

* * *

Nəsir müəllim ədəbiyyatı sevirdi, yaxşı bilirdi və klassik Şərq poeziyasına rəğbəti xüsusi idi. Yaddaşında Şərq klassiklərindən çoxlu hikmətli misralar, aforizmlər də vardı ki, yeri düşdükcə, söhbət əsnasında mətləbinə dayaq kimi onlardan istifadə edərdi.

Şərq klassikasına marağı və heyranlığına, görünür, Məmmədağa Sultanovla dostluğu, sıx ünsiyyətləri da təkan vermişdi. Farsdili şeirin və orta əsrlər Azərbaycan poeziyasının kamil bilicisi olan Məmmədağa müəllimlə Nəsir müəllimi yaxınlaşdıran bir cəhət də onların insani keyfiyyətləriylə də bir-birlərinə bənzəməsiydi. Hər ikisi həlim təbiətli, istiqanlı, mehriban, nəcib, xeyirxah idi.

"Bakı" qəzetində ilk yazılarım dərc edildiyi 1970-ci illərdə, tələbəliyimin başlanğıcında Məmmədağa müəllim yaratdığı Əlyazmalar Fondunun direktoru idi. Onun özü də, rəhbərlik etdiyi və peşəkar alimlərin istifadəsi üçün nəzərdə tutulmuş əlyazmaları xəzinəsi də mənimçün əlçatmaz idi. Amma Nəsir müəllim Məmmədağa müəllimdən xahiş etmişdi və mənə hələ tələbəykən əlyazmalardan istifadə üçün xüsusi oxucu bileti verilmişdi. O vaxt belə imtiyazı olan ikinci bir tələbə yox idi.

Köhnə dostu Abdulbağı müəllim atamı da Nəsir müəllimlə tanış etmişdi və günlərin birində mənə göstərdiyi qayğılara görə redaktoruma təşəkkür etməyə birgə gəlmişdilər.

Sonralar hərdən-hərdən görüşərdilər də.

Hələ tələbəykən mən XI yüzilin məşhur filosof-şairi Baba Tahir Üryanın həyat və yaradıcılığını araşdırmağa başlamışdım, şeirlərini farscadan ana dilimizə çevirməyə də ilk təşəbbüslərim olmuşdu. Amma o tərcümələri üzə çıxarmırdım. Evdə bilirdilər, bir də 2-3 tələbə dostumun xəbəri vardı.

Bir dəfə redaksiyaya növbəti material gətirəndə söylədilər ki, səni Nəsir müəllim axtarır.

"Deyirlər gizlində şeir yazırsan, tərcümələr eləyirsən, gətir bir onlara baxaq".

Bildim ki, bu sirri Nəsir müəllimə atam açıb.

Heç o tərcümələri makinada da çap etdirməmişdim, eləcə əlyazmam idi. Ertəsi günü dəftəri gətirdim Nəsir müəllimə. 100-ə yaxın dübeytinin şeirlə tərcüməsi idi. Elə 3-4-nü əlyazmada oxuyandan sonra mənə: "Sabaha Baba Tahir haqqında ön söz olaraq 2-3 səhifəlik məlumat hazırla", - dedi və dəftəri də redaksiyanın makinaçılarına göndərərək tapşırdı ki, təcili yazın.

Növbəti gün Nəsir müəllim sevincimin üstünə bir sevinc də artırdı: "Dübeytilərdən 40-nı seçmişəm. O müqəddiməni də qoy bunun üstünə, get "Azərbaycan" jurnalına - Ağacavad Əlizadənin yanına. Mən bəyəndim şeirləri, yaxşı tərcümələrdir, Ağacavad vaxtilə mənim işçim olub, şairdir, bir o da baxsın. Jurnalın redaktoru Cəlal Məmmədovla da danışmışam, növbəti nömrələri çapa gedir, orada sənə yer saxlayıblar. Özümüz də verə bilərik, amma ədəbi jurnalda çıxmağı daha sanballı olar".

1974-cü ilin aprelində "Azərbaycan" jurnalında bu yazım işıq üzü görəndə uçmağa qanadım yox idi.

O vaxtlar bir tələbənin yazısının məşhur yazıçı və şairlərin inhisarında olan belə bir mötəbər jurnalda nəşr edilməsi qeyri-adi hadisə idi. Nəsir müəllimin zəmanəti olmasaydı, məni kim idi yaxına buraxan?!

İllər sonra mütəfəkkir şair Baba Tahirin 300-dən artıq dübeytisinin tərcüməsini geniş ön söz və şərhlərlə ayrıca kitab halında nəşr etdirəndə mətbəədən götürdüyüm ilk nüsxəni ən minnətdar duyğularla Nəsir müəllimə bağışladım.

Artıq "Bakı"dan getdiyi vaxtlarda nəşr olunan hər yeni kitabımı Nəsir müəllimə təqdim edəndə sidq-ürəkdən sevinərdi, fərəhlənərdi.

Hiss eləyirdim ki, Nəsir müəllim hər uğurumla həm məni doğma bilən bir insan, həm də nailiyyətlərimdə payı olan bir müəllim kimi iftixar duyur…

* * *

Nəsir müəllim uzun və xoşbəxt bir ömür yaşadı.

"Uzun" və "xoşbəxt" anlayışları bəlkə də ömrə eyni anda aid ediləndə təzadlı görünür.

Ömür uzun olduqca itkilərimiz də çox olur, acılarımız da, gördüyümüz dönüklüklər də artır, üzləşdiyimiz haqsızlıqlar da… və daha nələr, nələr…

Bütün bunların hamısını gördü Nəsir müəllim.

Ürək sıyıran itkiləri də oldu, xiffətləri də.

Haqqının gərəyincə verilməməyi də oldu, namərdliklə üzləşdiyi də…

Amma istənilən halda çox xoşbəxt bir insan ömrü yaşadı Nəsir müəllim.

Mətbuat tariximizdə həmişə ən mehriban sözlərlə anılacaq möhtəşəm bir qəzetin qurucusu, memarı oldu.

"Bakı"nın memarı.

Bakının çox memarları olub.

Amma Nəsir İmanquliyevin adı o memarlar sırasında həmişə ən dərin ehtiramlarla, ayrı bir nəvazişlə anılacaq.

Nəsir müəllim məktəb yaratdı, yol öyrətdi, jurnalistlər, qəzetçilər yetişdirdi.

Yetirmələrinə yalnız yaxşı qələm sahibi yox, həm də yaxşı azərbaycanlı olmağın dərslərini, öyüdlərini verdi.

Ürəklərdə pozulmayan yeri, yaddaşlarda məhrəm təbəssümü heç vaxt əskik olmayan əziz surəti qaldı.

* * *

…İndi bir ilğım kimi ilk gəncliyin çox uzaqda qalmış qayıtmaz ucqarlarında sayrışan 1972-ci ilin yayında, tələbəliyimin başlanğıcında unudulmaz Nəsir müəllimin tapşırığı ilə yazdığım və "Bakı" qəzetində dərc edilən ilk böyük yazım "Meşənin dənizlə qovuşduğu yerdə" adlanırdı.

Nəsir müəllimi düşünürəm və bir suala da cavab tapmaq istəyirəm ki, axı nə idi onu fərqləndirən, nə idi onu bunca nurlu edən?

Özlüyündə dəniz də gözəldir, meşə də.

Ağac susuz yaşamaz, amma dənizin duzlu suyu da meşəyə həyat verə bilmir.

Bu iki gözəllik qovuşsa, ikiqat gözəllik, füsunkar bir mənzərə doğular.

Meşəylə dəniz o vaxt yanaşı yaşaya, bir-birinə süs verə bilir ki, onların qovuşuğunda, lap sərhədində ilk baxışda görünməyən saysız-hesabsız şirin sulu bulaqlar qaynayır.

Təbiətdəki nizamı o cür bulaqlar yaradır.

Həyatdakı nizamı isə Nəsir müəllim kimi varlığıyla bulaq olan, iti küncləri sığallamağı, insanları bir-birinə dost, məhrəm, hayan etməyi bacaran, daim xeyirxahlıq saçmağa qadir olan şəxsiyyətlər yarada bilir.

Nəsir müəllimin gözəl olanı görə bilən gözləri, gözəl olanları bir-birinə yaxınlaşdırmağa həmişə can atan nəcib ürəyi vardı.

Unutmaq olarmı belə insanı?!.

***Rafael HÜSEYNOV,***
***Milli Məclisin deputatı,***
***AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor***